**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№363/1** **21 fevral 2024-cü il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında komitələrin və komissiyanın 2023-cü il üzrə hesabatları, 2024-cü il üzrə iş planlarının və Əsasnamələrinin təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının “Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında komitələrin və komissiyanın yeni strukturunun və tərkibinin təsdiq edilməsi barədə” 2023-cü il 13 aprel tarixli 355/7 nömrəli və 28 dekabr tarixli 362/2 nömrəli qərarlarının icrasını təmin etmək məqsədilə 2023-cü il ərzində fəaliyyət göstərən 5 komitənin və 1 komissiyanın hesabatlarını və 2024-cü il üzrə təsdiq edilmiş komitələrin və komissiyanın rəhbərləri (Nəcəf Talıbov, Elçin Əliyev, Qoşqar Əhmədov, Fəqan Qarayev, İlham Süleyman, Ənvər Aslanov, Namiq Abbaslı, Anar Bayramov, Elçin Qurbanov, Kamil Hüseynov) tərəfindən hazırlanıb təqdim edilmiş komitələrin və komissiyanın Əsasnamələrinin və 2024-cü il üzrə iş planlarının layihələrini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən aşağıdakı komitələrin və komissiyanın 2023-cü il üzrə hesabatları nəzərə alınsın:

I. Beynəlxalq Audit Standartları, auditor fəaliyyətinin metodoloji və hüquqi təminatı üzrə komitə;

II. Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitə;

III. Haqsız rəqabətə qarşı mübarizə üzrə komitə;

IV. Beynəlxalq əlaqələr və xarici təşkilatlarla iş üzrə komitə;

V. Auditorların ixtisasartırması və peşə təhsili üzrə komitə;

VI. Etika, mübahisələr və intizam komissiyası.

2. Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən aşağıdakı komitələrin və komissiyanın Əsasnamələri və 2024-cü il üzrə iş planları təsdiq edilsin:

I. Auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitə;

II. Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitə;

III. Haqsız rəqabətə qarşı mübarizə üzrə komitə;

IV. Beynəlxalq əlaqələr və xarici təşkilatlarla iş üzrə komitə;

V. Auditorların ixtisasartırması və peşə təhsili üzrə komitə;

VI. Auditin hüquqi təminatı üzrə komitə;

VII. Beynəlxalq audit standartları üzrə komitə;

VIII. Rəqəmsallaşma, innovasiyaların tətbiqi və yaşıl iqtisadiyyat üzrə komitə;

IX. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) üzrə komitə;

X. Etika, mübahisələr, ictimai nəzarətlə əməkdaşlıq və intizam komissiyası.

3. Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən komitələrin və komissiyanın rəhbərlərinə tapşırılsın ki, Əsasnamələrindən irəli gələn vəzifələrin və 2024-cü il üzrə iş planlarında nəzərdə tutulmuş tədbirlərin icrasını vaxtında və keyfiyyətlə təmin etsinlər, həmçinin fəaliyyətləri barədə illik hesabatı hazırlayıb 2025-ci ilin yanvar ayının sonunadək Auditorlar Palatasına təqdim etsinlər.

4. Auditorlar Palatasının struktur bölmərinin rəhbərlərinə tapşırılsın ki, Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən komitələrin və komissiyanın 2024-cü il üzrə iş planlarında nəzərdə tutulmuş işlərin icrasında onlara dəstək göstərsinlər.

5. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, iki həftə müddətində Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən komitələrin və komissiyanın rəhbərliyinin və üzvlərinin fotoşəkilləri də əks olunmaqla onlar barədə məlumatların Palatanın internet səhifələrində yerləşdirilməsi təmin edilsin.

6. Sədrin müşaviri Fəqan Qarayevə tapşırılsın ki, bu qərarın, komitələrin və komissiyanın Əsasnamələrinin və 2024-cü il üzrə iş planlarının mətnlərinin Auditorlar Palatasının internet səhifələrində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**